***TARİX***

https://doi.org/10.59849/3006-1342.2026.2.3
UOT 94 (479.24)

*İbrahim Feyzulla oğlu Kazımbəyli*
*Azərbaycan Dillər Universiteti*
*Tarix elmləri doktoru, professor*
*E-mail: ibrahimkazimbeyli@gmail.com*
*ORCİD İD: 0000-0002-8761-9927*

# İRƏVAN VƏ ƏTRAF ƏRAZİLƏRİN ERMƏNİSTANA GÜZƏŞTƏ GEDİLMƏSİNİ ZƏRURİ EDƏN TARİXİ ŞƏRAİT: FAKTLAR, SƏBƏBLƏR VƏ NƏTİCƏ

*Məqalədə Azərbaycanın qədim və əzəli torpağı olan İrəvanın Ermənistana güzəştə gedilməsini zəruri edən tarixi şərait, bunu doğuran səbəblər və eləcə də onun nəticələri mötəbər arxiv sənədləri əsasında araşdırılmışdır. Azərbaycanın əzəli torpağı olan İrəvan xanlığı 1827-ci ildə Rusiya tərəfindən işğal edildikdən sonra çarizm mərhələ-mərhələ xanlığın aborigen əhalisi olan azərbaycanlıların diskriminasiyası və xaricdən ermənilərin köçürülməsi hesabına bölgənin etnik tərkibini süni şəkildə dəyişdi və bu bölgənin erməniləşdirilməsini həyata keçirdi. İrəvan bölgəsində ermənilər Rusiyanın birbaşa köməyi ilə özlərinin ərazi bazalarını yaratdılar.Təəccüb doğursa da, nəticə etbarilə çarizmin devirilməsinin ardından qısa müddətdə fəaliyyət göstərən Cənubi Qafqaz idarəçilik sisteminin dağılması ilə 1918-ci ildə paytaxtı İrəvan olmaqla bölgədə ermənilərə dövlət yaradan nə Rusiya, nə də Avropa dövlətləri olmayıb, məhz Osmanlı dövləti olmuşdur. Halbuki, həmin dövlətlər ermənilərdən regiondakı maraqları və Osmanlı dövlətinin parçalanması üçün istifadə etmişdir.*

*Açar sözlər:* Osmanlı dövləti, Rusiya, Azərbaycan Xalq Cümhuriyyəti, Naxçıvan, Qarabağ, dövlət yaratmaq planları

## *Giriş*

Çar Rusiyası geosiyasi və geoiqtisadi əhəmiyyəti yüksək olan Cənubi Qafqazı işğal etdikdən sonra burada möhkəmlənmək, eləcə də növbəti genişlənmə planlarını reallaşdırmaq məqsədilə Türkmənçay və Ədirnə müqavilələrinə istinad edərək Qacarlar və Osmanlı imperiyaları ərazisində yaşayan erməniləri kütləvi formada Şimali Azərbaycan ərazilərinə-xususilə də-Qarabağ və Naxçıvan torpaqlarına köçürməyə başladı.

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi məsələsi hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyasının çoxdankı işğalçılıq planlarının tərkib hissəsi idi.

Qacarlar və Osmanlı dövlətlərinin sərhədlərində müsəlman-türk dünyasını bir-birinə qarşı qoymaq və bufer xristian zolağı yaratmaq məqsədini güdən çar Rusiyası tarixən böyük dövlətlərin aləti olmuş erməniləri Azərbaycanın başlıca olaraq İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürülməsini həyata keçirdi.

XVIII əsrin birinci rübündə I Pyotr tərəfindən Xəzər dənizinin qərb sahillərinə (Səfəvi dövləti ərazisinə) təşkil edilmiş hərbi yürüşlər gedişində Azərbaycan torpaqlarında erməni ünsürünün say tərkibinin artırılması məsələsi çar Rusiyasının xüsusi diqqət yetirdiyi məsələlər sırasında yer tuturdu. Çar Rusiyasının Cənubi Qafqaz istiqamətində ərazi baxımdan genişlənməsi gedişində əhalisinin böyük əksəriyyəti müsəlman olan regionun xristianlaşdırılması siyasətinə ayrıca önəm verilirdi. Düzdür, həmin vaxt Cənubi Qafqazda

yerli xristian gürcülər yaşayırdı. Amma, Peterburq sarayında Azərbaycan xanlıqlarının müqavimət əzminin qırılması, əhalisinin böyük hissəsi yerli türk tayfaları olan əhali arasında Rusiyaya qarşı narazılıqların zəiflədiməsi məqsədilə daha çox erməni ünsürünə istinad etməyi daha məqsədə müvafiq hesab edirdilər. Çar admnistrasiyası hesab edirdi ki, xarakterik xüsusiyyətləri və mənəvi-etik kefiyyətləri baxımından ermənilər içərisində müsəlman-türklərə qarşı düşmənçilik, hiyləgərlik və nifrət meyilləri daha güclüdür.

İrəvan bölgəsi tarixi Azərbaycan torpağıdır. Qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər İrəvan və ətraf ərazilər tarixi Azərbaycan torpaqlarında yaranıb fəaliyyət göstərən dövlətlərin ayrılmaz tərkib hissəsi olmuşdur. Bu problemin bir neçə istiqaməti, xüsusilə XIX-XX əsrləri əhatə edən dövr tərəfimizdən ətraflı tədqiq olunmuş və tutarlı sənədlər, faktlar əsasında öyrənilmişdi. XX əsrin əvvəllərinədək yazılan əsərlərdə əsasən İrəvan bölgəsinin tarixi də digər bölgələr kimi ümumi Azərbaycan tarixi konteksində nəzərdən keçirilir.

## 1. İrəvanın güzəştə gedilməsi ərəfəsində ictimai-siyasi vəziyyət.

Rusiya imperiyasının genişmiqyaslı hərbi, siyasi və maliyyə dəstəyi ilə təhciz olunan erməni silahlı qüvvələri XIX yüzilliyin sonlarından başlayaraq “Böyük Ermənistan” xülyasının reallaşdırılması istiqamətində açıq və məqsədyönlü mübarizə yolunu seçmiş oldular. İdeoloji və nəzəri əsasları Eçmiədzində hazırlanmış bu konsepsiyaya görə tarixi Azərbaycan torpağı olan İrəvan və ətraf ərazilərdən yerli türk əhalini sıxışdırıb çıxarmaq, onların yaşadıqları ərazilərin bütöv şəkildə ələ keçirilməsi və perspektivdə erməni dövlətinin yaradılması üçün münbit şərait yaradılmalı idi. XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəllərində yalnız İrəvan quberniyası çərçivəsində 200-dən artıq azərbaycanlı yaşayış yeri erməni silahlı dəstələri tərəfindən talan edilərək dağıdılmış, əhalisi isə kütləvi şəkildə qırılmışdır. Bütün bu vəhşilklərə regiondakı çar yetkili orqanları göz yumduğundan erməni silahlı dəstələri sakitləşmək bilmir və əksinə talançı fəaliyyətlərini daha da genişləndirirdi.

Çarizm müharibə şəraitində ermənilərin Rusiyaya dəstək verəcəyi və Osmanlı imperiyasına qarşı üsyanlar təşkil edəcəyi halda onlara Şərqi Anadolu torpaqlarında və Kilikyada muxtariyyat ala bilmələri üçün lazımi köməkliyi göstərəcəyini vəd edirdi. Bundan əlavə Rusiya imperiyası ərazisində yaşayan ermənilərin xeyrinə isə bəzi islahatların keçirilməsilə onların haqq və hüquqlarının tanınmasının təmin olunmasına söz verirdi. Çar Rusiyası Osmanlı dövləti daxilində ermənilərin qiyamlarını təşkil etməklə daxildən onu sarsıtmaqla Bosfor və Dardaneli ələ keçirməyi, eləcə də Şərqi Anadolu və Kilikyanı işğal etmək niyyətində idi. Bu aspektdə imperiyanın Cənubi Qafqazdakı ali nümayəndəsi Vorontsov-Daşkov katolikos V.Gevorqa ünvanladığı məktubda qeyd edirdi ki, təmsil etdiyi dövlət sizin (yəni ermənilərin) irəli sürdüyünüz tələbləri düzgün hesab edir və onu müdafiə edəcəkdir [13, s. 89-82]. Beləliklə, Rusiya imperiyasının bilavasitə himayəsi və rəhbərliyi altında sultan hakimiyyətinə qarşı silahlı mübarizə aparmaq, eyni zamanda daxildə üsyanlar təşkil edilməsi yolu ilə hakimiyyətin zəiflədilməsi məqsdilə erməni silahlı dəstələrinin yaradılması prosesi sürətləndirildi.

Gerçəklikdə Antanta blokuna daxil olan dövlətlərdən hər biri ermənilərin Osmanlı imperiyası daxilində muxtariyyət qazanması ilə bağlı bəzən daha dəqiq, bəzən isə mücərrəd və ümumi xarekterli vədlər səsləndirərək, öz geosiyasi planlarını reallaşdırmaq üçün erməni faktorundan daha çox alət kimi istifadə edirdi. XIX yüzilliyin sonlarında müşahidə olunduğu kimi Birinci Dünya müharibəsi gedişində də ermənilər Osmanlı imperiyası ərazisində bir-neçə əsrdir xəyal etdikləri planları həyata keçirə bilmədiklərini anlayıb, fəaliyyət istiqamətlərini Cənubi Qafqaza yönəldərək Azərbaycan ərazilərində öz niyyətlərini gerçəkləşdirməyə çalışdılar.

1917-ci il Fevral burjua inqilabının ardından Rusiya bir iç savaşa sürüklənərək dünya müharibəsini davam etdirmək gücünü itirmiş oldu. Belə vəziyyətdə 1918-ci il 3 mart


ghumanitar@mail.ru

tarixində yenicə elan olunmuş Sovet Rusiyası ilə Üçlər İttifaqı dövlətləri arasında Brest-Litovsk sülh sazişi imzalandı. Adıçəkilən sazişin IV maddəsinə əsasən hələ 1877-1878-ci illər Rus-Türk müharibəsi gedişində ələ keçirdiyi Qars, Ərdahan və Batum vilayətlərinin (həmin ərazilərdə keçiriləcək referendumun nəticələrinə uyğun gəldiyi halda) Osmanlının nəzarətinə keçməsinə etiraz etməyəcəyi öhdəliyini götürüdü. [7, s. 121]. Həmin vaxt Cənubi Qafqazda idarəçiliyi həyata keçirən Zaqafqaziya Seymi sovet Rusiyası ilə Üçlər İttifaqı arasında imzalanmış Brest-Litovsk sazişini tanımaqdan imtina edərək, onun müddəalarını icra etməyəcəklərini açıq şəkildə bildirdi. Cənubi Qafqazda yaranmış yeni siyasi reallığı nəzərə alan Osmanlı dövləti Seymlə ayrılıqda danışıqlar aparmaq məcburiyyətində qaldı. Osmanlı dövləti Cənubi Qafqaz Seymi ilə danışıqlar aparmaq üçün 1918-ci il martın 14-də Trabzonda konfransını çağırmış oldu. Konfransın gedişində Osmanlı nümayəndə heyətinə rəhbərlik edən Rauf Orbay məhz Brest-Litovsk sazişinin müddəaları əsasında razılılığın əldə olunmasının mümkünlüyündə israr etdi. Seym nümayəndələri isə Osmanlı nümayəndələrinin təkliflərinə qəti etirazlarını bildirərək, Brest-Litovsk müqaviləsinin legitimliyini tanımaqdan imtina etdilər. [8]. Trabzon danışıqları nəticəsiz yekunlaşdıqdan sonra Osmanlı dövləti Brest-Litovsk müqaviləsində özünə aid maddələrin yerinə yetirilməsinə başladı ki, bu da gürcü və ermənilərin hərbi əməliyyatlara başlması ilə nəticələndi. Cəmi 8 gün davam edən müharibədə Osmanlı dövləti Qars, Ərdahan və Batumu ələ keçirə bildi. Beləliklə Osmanlı dövləti Brest-Litovsk sazişində nəzərdə tutulan ərazilər üzərində hərbi güclə hakimiyyətini bərqərar edə bildi. 1918-ci il aprel ayının 22-də Cənubi Qafqaz Seyminin iclasında müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradılması elan edildi. Gürcü sosial-demokratı Akakı Çixengelinin rəhbərliyi altında yeni hökümət yaradıldı. Xatırladaq ki, A.Çixengeli Osmanlı dövləti ilə sülh tərəfdarı idi. Bununla yanaşı, Osmanlı dövləti ilə mübahisəli məsələləri sülh yolu ilə həll etmək məqsədilə danışıqların davam etdirilməsi və mümkün qədər tez bir zamanda sülh müqaviləsinin imzalanması barədə qərar qəbul olundu [12, s. 222].

## 2. Batum konfransı və İrəvanın güzəştə gedilməsi.

Osmanlı dövləti ilə Cənubi Qafqaz seymi arasında Trabzonda yarımçıq qalmış sülh danışıqlarının ikinci mərhələsi çərçivəsində 1918-ci il mart ayının 11-də Batum şəhərində konfrans öz işinə başlamış oldu. Konfransda Osmanlı dövləti 10 nəfərlik nümayəndə heyəti ilə təmsil olunurdu. Nümayəndə heyətinə həmin vaxt Ədliyyə naziri postunu tutmuş Xəlil bəy Mentəşə başçılıq edirdi. Xatırladaq ki, Xəlil bəy Ədliyyə naziri ilə yanaşı, Xarici İşlər nazirinin vəkili vəzifəsini də daşımaqda idi. Osmanlı nümayəndə heyətinin tərkibində həmin vaxt Qafqaz cəbhəsinin komandanı olan Ferik Mehmed Vehib paşa da var idi. Ferik Mehmed Vehib paşa heyətin əsas simalarından hesab edilirdi. [5]. Gürcü mençeviki olan A.Çxengelinin başçılıq etdiyi Cənubi Qafqaz nümayəndə heyətinin tərkibinə daha çox sayda nümayəndə heyəti daxil edilmişdir. Daha dəqiq söyləsək, nümayəndə heyətinin sayı 45-ə çatırdı. Belə çoxsayda təmsilçilik Seymdə fəaliyyət fraksiyalar arasında inamın olmaması və qarşılıqlı etimadsızlıq mühitinin hökm sürməsindən irəli gəlirdi. Bununla belə nümayəndə heyətinin 6 əsas üzvdən ibarət qərarverici qrupu formalaşmışdır. Həmin qrupa gürcülərdən menşevik A.Çxengeli və liberal və islahatçı görüşləri mənimsəmiş N.Nikoladze, azərbaycanlılardan isə Müsavat partiyasının lideri M.Ə.Rəsulzadə və M.H.Hacınski daxil idi. Ermənilər isə Daşnaksütyun partiyasının üzvləri R.Kaçazuni və A.Xatisov ilə təmsil olunurdu [1, s. 34]. Xatırladaq ki, bu şəxslər az sonra Azərbaycan torpaqları hesabına süni şəkildə yaradılacaq Ararat respublikasına rəhbərlik edəcəkdir.

11 may 1918-ci il tarixində həm Osmanlıların, həm də gürcülərin iddia etdikləri Batumda konfrans öz işinə başladı və ilk ümumi iclası keçirildi. Osmanlı nümayəndə heyətinə başçılıq edən Xəlil bəy Mentəşə açılış nitqi söylədi. Xəlil bəy nitqində açıq şəkildə bildirdi ki, Brest-Litovsk müqaviləsinin şərtlərini Cənubi Qafqaz nümayəndələri Trabzon

konfransında qəbul etmədi və ardından gürcülər ermənilərlə birlikdə Osmanlı dövlətinə qarşı 8 gün davam edən (13-21 aprel) müharibə apardmışdır. Buna görə də tərəflər arasında qan axıdıldığından, Brest-Litovsk müqaviləsinin şərtləri hazırkı danışıqlarda əsas götürülə bilməz. Osmanlı nümayəndə heyəti tərəfindən təqdim olunan 12 maddədə və 3 əlavədən ibarət olan "Osmanlı dövləti ilə Zaqafqaziya Federativ Respublikası arasında sülh və dostluq haqqında" süllh müqaviləsinin şərtləri müzakirə olunmaq məqsədilə Cənubi Qafqaz nümayəndələrinə təqdim olundu. Yeri gəlmişkən qeyd edək ki, adıçəkilən müqavilə layihəsi konfransın rəsmi açılışından öncə-mayın 2-də həmin vaxt Osmanlı dövlətinin Müdafiə naziri olan Ənvər paşa tərəfindən Batumdakı türk nümayəndə heyyətinə göndərilmişdir. Göndərilən müqavilə layihəsi ilə yanaşı, Ənvər paşa Vehib paşaya belə bir təlimat vermişdir ki, " əgər Cənubi Qafqaz nümayəndələri bizim tələblərimizi sülh yolu ilə qəbul etməzsə, onda biz onu hərbi yolla qəbul etdirməli olacağıq".

Qeyd olunan müqavilə layihəsində Osmanlı dövləti 8 günlük hərbi əməliyyatlar zamanı verdiyi əsgəri itkilər və əldə etdiyi qələbə ilə əlaqədar yeni hərbi-siyasi şəraitin yarandığını əsas gətirək bir sıra ərazilər və xüsusi hüquqlar tələb etmiş oldu. Tələb olunan yeni ərazilər sırasında Ahıska və Axalkələk qəzaları, İrəvan qunberniyasının Gümrü və Sürməli qəzaları, Uluxanlı, Vedibasar və Kəmərli bölgələri, bundan əlavə Eçmiədzin qəzasının bir hissəsini təşkil edən Sərdarabad, Şərur-Dərələyəz qəzasının Şərur bölgəsi, Naxçıvan qəzası (Ordubad istisna olmaqla) yer almaqda idi. Əlavə olaraq Qars-Gümrü-Culfa dəmir yolunun da Osmanlı nəzarətinə keçməsi tələb olunurdu. Birinci Dünya müharibəsində İngiltərənin Osmanlıya qarşı savaşı davam etdiyi müddətdə sultan hakimiyyətinə Cənubi Qafqazın dəmir yolu şəbəkəsindən bütün infrastrukturu ilə birlikdə istifadə hüququ tələb olunurdu. [6].

Osmanlı dövlətinin ərazi ilə bağlı tələbləri olduqca sərt idi. Belə ki, Brest-Litovskidə Osmanlı dövləti üçün müəyyənləşdirilmiş şərq sərhədləri 1877-1878-ci illər rus-türk müharibəsinə qədər olan sərhədini əsas götürürdüsə, Xəlil bəyin başçılığı altında nümayəndə heyətinin irəli sürdüyü tələblərdə isə ərazi sərhədləri hətta 1828-1829-cu illər müharibəsi zamanı formalaşmış sərhədləri də aşırdı. Cənubi Qafqaz nümayəndə heyəti isə Osmanlı nümayəndələrinin bu tələblərini gözləmirdi və ümid edirdilər ki, sülh müqaviləsinin məhz Brest-Litovsk razılaşması əsasında bağlanmasına nail olacaqlar. Batumda Cənubi Qafqaz nümayəndə heyəti Osmanlı nümayəndələrinin bu təklifi ilə qarşılaşanda aparılan müzakirələr gedişində bir ümumi nəticə hasil edə bilmədikləri üçün daxili ziddiyyətlər daha da artmağa başladı. Nümayəndə heyətində təmsil olunan gürcü, erməni və azərbaycanlı siyasi xadimlər Osmanlı və Almaniya ilə ayrılıqda danışıqlar apararaq razılıq əldə etmək qərarına gəldilər. Osmanlı nümayəndələrinin təzyiqlərindən qorunmaq üçün gürcülər Almaniya ilə yaxınlaşmağı ən münasib addım hesab etdilər. Gürcü nümayəndələri almanlarla məxfi şəkildə apardıqları danışıqlar tərəflər arasında 25 may tarixində Poti razılaşmasının əldə edilməsi ilə yekunlaşmış oldu. Həmin razılaşmaya görə Gürcüstan dərhal Cənubi Qafqaz Seyminin tərkibindən çıxaraq müstəqilliyini elan etməli və Almaniyanın himayəsini qəbul etməli idi [15, s.158]. Mayın 25-də Batumdan tələsik Tiflisə dönən gürcü nümayəndələri başda N.Jordaniya olmaqla Osmanlı dövləti ilə aparılan danışıqlar barədə menşeviklərin konfransına məlumat verdi. Həmin iclasda Gürcüstanın Cənubi Qafqaz Seymindən ayrılaraq müstəqilliynin elan edilməsi müzakirəyə çıxarıldı [1, s.57]. Xüsusi olaraq qeyd etmək istərdik ki, Cənubi Qafqazda ermənilərin çoxdan çalışdıqları, xəyal etdikləri dövlətinin yaranması məsələləsinə Osmanlı höküməti daxilində fikir birmənalı deyildir. Sədrəzəm Tələt paşa ilə yanaşı dövlətin əsas güc strukturuna-hərbi qüvvələrinə rəhbərlik edən Ənvər paşa erməni dövlətinin yaradılmasına qarşı çıxış edirdi. Ənvər paşa bildiridi ki, "çibanı kökündən təmizləmək" lazımdır. Adıçəkilən dövlət rəsmiləri Cənubi Qafqazda erməni dövlətinin yaranmasının qarşısının ala bilinmədiyi halda "olduqca zəif və yaşaması müşkül olacaq bir şəkildə təcəlli etməsini" məqbul hesab edirdilər. Sədrəzəm və Müdafiə nazirindən fərqli

olaraq Batum konfransında türk nümayəndə heyətinin başçısı və eyni zamanda Dövlət Şurasının sədri Xəlil bəy Mentəşə və Osmanlı ordusunun Cənubi Qafqazdakı qoşunun komandanı Vehib paşa Azərbaycan torpaqlarının bir hissəsində-İrəvan və ətraf ərazilərdə erməni dövlətinin yaradılmasının tərəfdarı kimi çıxış edirdilər. Xəlil bəy və Vehib paşa hesab edirdilər ki, ermənilər dövlət yaradacağı halda uzun onlar Anadoludan uzaqlaşmaqla yanaşı həm də münasibətlərdə normallaşma əldə ediləcək və bununla da "erməni məsələsi" ilə bağlı Osmanlı dövlətinə qarşı beynəlxalq güclərin təzyiqləri aradan qalxmış olacaqdır.

Batumdakı azərbaycanlı nümayəndələrin müraciəti, eyni zamanda Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Mentəşənin inadkar təkidləri Tələt və Ənvər paşanın da erməni dövlətinin yardılmasına qarşı sərt çıxışlarına öz təsirini göstərmiş oldu. Artıq Osmanlı hakim dairələrində erməni dövlətinin yaradılması haqqında fikir ayrılıqlarına böyük ölçüdə son qoyulduqdan sonra, qarşıda duran əsas məsələ onun hansı siyasi mərkəz-paytaxt ətrafında qurulması oldu. Beləliklə qədim oğuz-türk yurdu olan İrəvanın paytaxt şəhəri kimi qurulacaq erməni dövlətinə verilməsi gündəmə gəlmiş oldu. Osmanlı ordusu qalibiyyətli döyüşlər apararaq əvvəlcə Qarsı, ardınca isə Gümrünü (Aleksandrapolu) geri ala bilmişdir. Belə vəziyyətdə həmin coğrafiyada Osmanlı ordusunun nəzarətindən kənarda qalan şəhər İrəvan idi. Osmanlı siyasi dairələri İrəvanı ermənilərə paytaxt şəhəri kimi güzəştə getmək istəməsələr də, erməni nümayəndələr israrla İrəvanın onlara verilməsini tələb edirdi.

Yaranmış vəziyyət belə idi ki, Osmanlı siyasi xadimləri yaranacaq erməni dövlətinin siyasi mərkəzi üçün ya yenicə geri aldıqları Gümrünü güzəştə getməli və bununla da həmin şəhərlə bağlı irəli sürdüyü təkliflərdən əl çəkməli, ya da İrəvanın azərbaycanlılardan alınıb paytaxt şəhəri kimi ermənilərə verilməsinə hə deməli idilər. İki seçim qarşısında dayanan Osmanlı hakim dairələri Gümrüdən imtina etməyəcəklərini bildirməklə, faktiki olaraq İrəvanın ermənilərə güzəştə gedilməsinə tərəfdar oldular.

Dövlət Şurasının sədri, Xarici İşlər nazirinin vəkili və Ədliyyə naziri kimi mühüm vəzifələri əlində cəmləşdirən Xəlil bəy Mentəşə tarixən və həmin vaxt da azərbaycanlılara məxsus ərazilərin bir hissəsini ermənilərə güzəştə gedilməsini təklifi ilə çıxış etdi. Erməni nümayəndələr də Azərbaycan ərazilərinin onlara verilməsini tələb edirdi. Trabzon konfransında ermənilər Osmanlı nümayəndələrinin tələblərini qəbuledilməz hesab edərək, silahlı mübarizəni yeganə çıxış yolu hesab edərək 8 günlük müharibədə ağır məğlubiyyətə uğrayaraq Osmanlı tələbləri qarşısında daha acizanə görsənirdi. Batum konfransının sonlarına yaxın erməni nümayəndələr Osmanlı dövlətinin onlara ayırdığı ərazilərin çox kiçik olmasından şikayətlənirdi. Onlar açıq şəkildə bildirirdi ki, ermənilər üçün nəzərdə tutulan ərazilərin azlığı iki xalq arasında (türklər və ermənilər nəzərdə tutulur) daimi düşmənçiliyə səbəb olacaqdır. Erməni nümayəndələri Osmanlı dövlətindən ərazi güzəştləri əldə edə bilməyəcəklərini gördükdə, "heç olmasa" Azərbaycan ərazilərinin bir hissəsinin onlara verilməsini tələb etdilər. Bunun əvəzində isə ermənilər həmin vaxt Bakıdakı siyasi hakimiyyətinin böyük hissəsini əllərində cəmləşdirdiklərini əsas gətirərək, müsəlman əhalinin təhlükəsizliyinə zəmanət verə biləcəkləri ilə yanaşı, müsəlmanlarla aralarında illərdir davam edən düşmənçiliyin də səngiyə biləcəyini qeyd edirdilər. Batum konfransı gedişində Xəlil bəy Mentəşə qeyd olunan məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə danışıqlar aparmışdır. Nəticə etibarilə Osmanlı dövlətinin köməyinə böyük ehtiyac hiss edən Azərbaycan nümayəndələrini Türkiyə siyasi xadimləri razı salmağı bacardı [14, s.300-302].

### 3. İrəvanın güzəştə gedilməsinin səbəbləri, tarixi zərurət, yoxsa acı gerçəklik.

Uzun sürən Batum danışıqları Cənubi Qafqaz nümayəndələrinin qarşılarına qoyduqları məqsədlərə müxtəlif siyasi mərkəzlərdən dəstək almaq istiqamətindəki faəliyyəti səbəbilə fedarasiya şəklində varlıqlarını qoruyub saxlamağa imkan vermədi. Mayın 30-da Batunda İrəvan mərkəz olmaqla Erməni dövlətinin yaradılması prosesinin müzakirəsi başa çatmış

oldu. İrəvanın paytaxt şəhəri kimi və bir sıra ətraf ərazilərin ermənilərə verilməsi və Arart respublikasının yaradılması müqabilində Batumdakı daşnak liderlər aşağıdakı öhdəlikləri yerinə yetirilməsini üzərlərinə götürdü.

1. İllərdir müsəlman əhaliyə qarşı apardıqları düşmənçilik münasibətlərini aradan qaldıracaq. S.Şaumyanla əlaqəyə girib, ona mümkün təsiri göstərəcəkdir ki, Bakıdakı müsəlman əhalinin təhlükəsizliyinə təminat alsınlar. Azərbaycanlı əhaliyə qarşı kütləvi qırğının baş verməsinə imkan verməyəcəklər;

2. Bakı ilə yanaşı Azərbaycanın qəzalarında da erməni silahlı dəstələri tərəfindən azərbaycanlı əhali qarşı törədilən kütləvi qırğın, zorakılıq və talançılığın qarşısını alacaqdır;

3. Yeni yaradılan Ararat erməni respublikasında (yəni İrəvan və ətraf ərazilərdə) müsəlman əhalinin sərbəst formada dini ibadətlərinə, mədəniyyətlərinin inkişafına, siyasi azadlıqlarının təmininə və ana dilində təhsi almaq hüquqlarına tam təminat verir;

4. Ermənilər istənilən formada Azərbaycana qarşı heç bir ərazi iddiasında olmayacaqdır

5. Ermənilər gələcəkdə konfedarativ şəkildə Azərbaycanla eyni dövlətdə olmalarını mümkün hesab edir [9].

Aparılan qısa təhlildən göründüyü kimi Batum konfransının sonuna yaxın qədim türk-oğuz yurdu olan İrəvanın ermənilərə paytaxt şəhəri kimi verilməsi ilə əlaqədar razılaşma əldə olunmuşdur. Bunun məntiqi davamı olaraq 29 may 1918-ci il tarixində Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən Azərbaycan Milli Şurasının üçüncü iclasında İrəvan və ətraf ərazilərdə erməni dövlətinin yaradılması geniş müzakirə olundu. İclasda Azərbaycan ilə Ermənistan arasında sərhəd məsələləri, mövcud vəziyyət, problemlər və onların həlli ilə bağlı hər iki xalqı təmsil edən Milli Şuralarının üzvləri arasında aparılmış müzakirələr barədə yenicə hökümətə baş nazir təyin olunmuş F.Xoyski məlumat verdi. F.Xoyski real vəziyyəti təhlil edərək Milli Şura üzvlərinə bildirdi ki, ermənilər özlərinə siyasi mərkəz kimi seçmək istədiyi Gümrü şəhərini türklər tutduğundan və onu heç bir şəkildə güzəştə getməyəcəklərini bildirdiyindən İrəvanın Ermənistana verilməsi qaçılmaz acı həqiqət olduğunu bəyan etdi. Bu taleyüklü məsələ ətrafında Milli Şura üzvlər-X.Xasməmmədov, Ə.Şeyxül-İslmaov. M.Y.Cəfərov və M.Məhrərəmov çıxış etdilər. Onlar İrəvanın verilməsinin tarixi zərurət olduğunu bildirsə də, Azərbaycan üçün qaçınılması mümkün olmayan acı bir həqiqət olduğunu bildirdilər. İrəvanın Ermənistana verilməsi ilə bağlı Milli Şurada səsvermə keçirildi. Səsvermədə 28 nəfər iştirak edirdi ki, onun da 16 nəfəri məslənin lehinə, 1 nəfər əleyhinə, 3 nəfəri isə bitərəf qalmışdır. (protokol № 3-də belə göstərilmişdir) [2, s.51-52]. Beləliklə, tarixi Azərbaycan şəhəri, qədim türk yurdu İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi həll edilmiş oldu.

Milli Şurada İrəvan ilə bağlı aparılan müzakirələrdən sonra baş nazir F.Xoyski həmin gün Batumdakı Azərbaycan nümayəndə heyətinə yazırdı;"biz ermənilərlə bütün mübahisəli məsələləri bitirdik. Onlar bizim ultumatumumuzu qəbul edib, müharibəni dayandıracaqlar. Biz İrəvanı ermənilərə güzəştə getmək məcburiyyətində qaldıq" [4, s. 1-2]. 1 iyun 1918-ci il tarixində Azərbaycan Milli Şurasının Tiflisdə keçirilən dördüncü iclasında İrəvandan olan M.Seyidov, N.Nərimanbəyov və B.Rzayev tarixi Azərbaycan şəhəri İrəvanın ermənilərə verilməsinə etirazlarını yazılı formada bildirdilər. Artıq qərar qəbul olunmuşdur. Milli Şura isə həmin yazılı etirazı protokol işinə tikməklə kifayətlənməli oldu. [3, s. 161-133].

Azərbaycan torpaqları hesabına yaranmış Ararat respublikasının ərazisi İrəvan şəhəri və ətraf ərazilər daxil olmaqla cəmi 9 min $km^2$ idi. Ararat respublikası Göyçə gölü ilə Osmalı dövlətinin yeni formalaşan şərq sərhədləri arasında kiçik dağlıq bir ərazini əhatə edirdi. Daha dəqiqliklə göstərmiş olsaq erməni dövlətinə-Yeni Bəyazid (Basarkeçər istisna təşkil etməklə), İrəvan (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasarı çıxmaq şərti ilə) Gümrü qəzası (Gümrü şəhəri istisna olmaqla) daxil idi. Ermənilərə güzəştə gedilmiş yuxarıda adları

çəkilən ərazilərdə ümumilikdə 321 min nəfər əhali yaşayırdı ki, bunun da 230 min nəfəri erməni əhalisi idi. 80 min nəfəri isə yerli müsəlman türk əhalisi olduğu halda 11 min nəfəri isə digər xalqların nümayəndələri təşkil edirdi. [10, s. 69]. Xüsusi olaraq qeyd edək ki, bu ərazilərdə Erməni əhalinin üstünlük təşkil etməsi 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən sonra rusların erməniləri mərhələlərlə, sistemli formada Qacarlar və Osmanlı dövlətləri ərazilərindən köçürülməsi nəticəsində baş vermişdir.

Beləliklə, Osmanlı dövləti Batum danışıqlarında Osmanlı dövlətini istəyi ilə tarixi Azərbaycan torpaqlarında paytaxtı İrəvan olan 9 min kvadrat kilometr ərazini əhatə edən erməni dövləti yaradıldı. Ermənistan respublikasını tanıyan ilk dövlət də məhz Osmanlı oldu. Bununla da, Azərbaycan əraziləri hesabına erməni dövlətinin yaranmasında inadkar mövqeyi ilə seçilən Xəlil bəyin dili ilə demiş olsaq "erməni məsələsi" ilə bağlı beynəlxalq gücləri Osmanlı dövlətinə qarşı yönələn "qınağı"aradan qalxmış oldu [11]. Bununla yanaşı, ermənilərin daha çox himayəçisi kimi çıxış edən Rusiya və Fransanın Osmanlı dövlətinin şərq sərhədlərində-Anadolunun şərqində yaratmaqda israrlı olduqları erməni dövlətini Cənubi Qafqazda həyata keçirməklə həm də tarixən əziyyət çəkdikləri erməni məsələsini faktiki olaraq özlərindən uzaqlaşdırmağa nail oldular.

Lakin, öz xislətlərinə xiaf çıxmayan ermənilər tarixi Azərbaycan torpaqlarında özlərinə dövlət yaratdıqdan sonra üzərlərinə götürdükləri öhdəliklərin heç birini yerinə yetirmədilər. Batum danışıqlarından sonra da demək olar ki, 1918-ci ilin avqust ayının sonlarına qədər Azərbaycanın qəzalarında davam edən soyqırım cinayətlərinin qarşısının alınması istiqamətində nəinki heç bir addım atılmadı, əksinə yeni yaranan erməni dövləti onu hər vəchlə himayə etməyə başlamışdır. Yeni yaranan erməni dövləti-Ararat respublikası ərazisində yaşayan müsəlman-türk əhalisinə qarşı kütləvi şəkildə soyqırım törətdi, Azərbaycana qarşı yeni torpaq iddiaları ilə çıxış etdi.

## *Nəticə*

Apardığımız tədqiqatı ümumiləşdirərək bu nəticəyə gəlirik ki, tarixi Azərbaycan ərazisi olan İrəvan xanlığı çar Rusiyasının apardığı təcavüzkar müharibə nəticəsində 1827-ci ildə rus qoşunları tərəfindən işğal olunmuşdur. Məhz bu işğaldan sonra ermənilər Rusiya tərəfindən mərhələ-mərhələ sistemli şəkildə İrəvan xanlığının ərazilərinə köçürülmüşdür. Bu siyasətin həyata keçirilməsi üçün xanlığın yerli əhalisi olan azərbaycanlılar isə bütün vasitələrdən istifadə edilərək öz dədə-baba torpaqlarından köçürülməyə məruz qoyulmuşdur. Bunun nəticəsində isə əhalinin etnik tərkibi isə xeyli dəyişikliyə məruz qalmış və erməni əhalisini sayı süni şəkildə artırılmışdır. Ermənilər məhz himəyadarları olan Rusiyanın köməkliyi ilə İrəvan və ətraf bölgəsində gələcəkdə özlərinə siyasi qurum yaratmaları üçün ərazi bazaları formalaşdırmış oldular.

İrəvanın işğalından 1917-ci ilə qədər keçən zaman ərzində çarizm regiona tamamilə sahiblənmək üçün antitürk siyasətinin həyata keçirilməsində ənənəvi olaraq ermənilərdən alət kimi yararlandılar. Tarix təzadlarla doludur və burda da özünü göstərir. 1918-ci ildə ermənilərə Cənubi Qafqazda mərkəzi İrəvan olmaqla dövlət yaratmaqda fürsət verən nə Rusiya, nə İngilətərə, nə də Fransa oldu. Bu Osmanlı dövləti idi. Halbu ki, həmin dövlətlər zaman-zaman ermənilərdən Osmanlı dövlətinə qarşı istifadə etmişdir. Osmanlı dövləti isə erməni dövlətini paytaxt İrəvan olan Azərbaycan torpaqlarında yaradılmasına rəvanc verdi.

## ƏDƏBİYYAT

1. Авалов З. Независимость Грузии в международной политике. 1918-1921 гг. Париж, 1924, с. 319.
2. ARDA, f. 970, siy. 1, iş 1, v. 51-52.
3. ARDA, f. 970, siy. 1, iş 1, v. 53-54.

4. ARDA, f. 970, siy. 1, iş 4, v. 1-2.
5. ATASE, A. 4/3671, K. 2917, D. 493-302, F. 1-34.
6. ATASE, A. 4/3671, K. 2917, D. 493-302, F. 1-136, 1-137.
7. BOA, HR. SYS, D. 2297, G. 1, 4;
8. BOA, HR. SYS, D. 2303, G. 2-13
9. BOA, HMŞ.İŞO, D. 107, G. 11, v. 11-19, 28-32;
10. BOA, HR.SYS, D. 2372, G. 1, v. 69.
11. BOA, HR.SYS, D. 2371, G. 6, v. 82-83;
12. Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 222.
13. История Азербайджана по документам и публикациям. Под. ред. акад. З.М.Буниятова. Баку, Элм, 1990.
14. Kazımbəyli İ. Azərbaycanın İrəvan bölgəsi: sosial-iqtisadi və siyasi tarix (XIX-XX əsrin əvvəlləri ) Bakı-2017. s. 400.
15. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi, s. 158;

УДК 94 (479.24)

*Ибрагим Фейзулла оглы Казымбейли*
*Азербайджанский Университет Языков*

## ИСТОРИЧЕСКИЕ УСЛОВИЯ, ОБУСЛОВИВШИЕ ПЕРЕДАЧУ ИРЕВАНА И ПРИЛЕГАЮЩИХ ТЕРРИТОРИЙ АРМЕНИИ: ФАКТЫ, ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Османское государство, Россия, Азербайджанская Демократическая Республика, Нахичевань, Карабах, создание государства

Обобщая проведённое исследование, приходим к выводу, что Иреванское ханство, являвшееся исторической территорией Азербайджана, было оккупировано русскими войсками в 1827 году в результате агрессивной войны, проводимой царской Россией. Именно после этой оккупации армяне начали поэтапно и системно переселяться на территорию Иреванского ханства при поддержке России. Для реализации данной политики местное население ханства — азербайджанцы — подвергалось вытеснению со своих исконных земель с использованием различных средств. В результате этого этнический состав населения претерпел значительные изменения, а численность армянского населения была искусственно увеличена. При содействии России, выступавшей в роли покровителя, армяне сформировали в Иреване и прилегающих регионах территориальную базу для создания в будущем собственного политического образования.В период с момента оккупации Иревана до 1917 года царизм, стремясь к полному господству в регионе, использовал армян в качестве инструмента реализации своей политики на Южном Кавказе. История полна противоречий, и данный случай является наглядным подтверждением этого. В 1918 году возможность создания армянского государства в Южном Кавказе с центром в Иреване была предоставлена не Россией, не Великобританией и не Францией несмотря на то, что эти государства в разные периоды использовали армян против Османской империи. Именно Османское государство дало согласие на создание армянского государства на азербайджанских землях со столицей в Иреване.

UDC 94 (479.24)

*Ibrahim Feyzulla Kazımbeyli*
*Azerbaijan University of Languages*

# HISTORICAL CONDITIONS NECESSITATING THE CESSION OF IREVAN AND SURROUNDING TERRITORIES TO ARMENIA: FACTS, CAUSES, AND CONSEQUENCES

## *SUMMARY*

*Keywords:* Ottoman Empire, Russia, Azerbaijan Democratic Republic, Nakhchivan, Karabakh, state-building plans

Summarizing the conducted research, we arrive at the conclusion that the Irevan Khanate, which constituted a historical territory of Azerbaijan, was occupied by Russian troops in 1827 as a result of the aggressive war waged by Tsarist Russia. It was precisely after this occupation that Armenians were gradually and systematically resettled into the territories of the Irevan Khanate with the support of Russia. For the implementation of this policy, the local population of the khanate — Azerbaijanis — was subjected to forced displacement from their ancestral lands through the use of all available means. As a result, the ethnic composition of the population underwent significant changes, and the number of the Armenian population was artificially increased. With the assistance of Russia, acting as their patron, Armenians formed a territorial base in Irevan and its surrounding regions for the future establishment of their own political entity.

During the period from the occupation of Irevan until 1917, Tsarism, in its efforts to establish complete dominance over the region, traditionally made use of Armenians as an instrument for the implementation of its anti-Turkish policy. History is full of contradictions, and this case is a clear illustration of this. In 1918, the opportunity to establish an Armenian state in the South Caucasus with its center in Irevan was granted not by Russia, nor by Great Britain, nor by France, despite the fact that these states had, at various times, made use of Armenians against the Ottoman Empire. It was the Ottoman state that consented to the establishment of an Armenian state on Azerbaijani lands, with its capital in Irevan.

***Daxil oldu: 10.03.2026-cı il***